Qeyd edək ki, 2010-cu ildə Avropa Birliyi və tərəfdaş ölkələrin iştirakı ilə peşə təhsili və təlimi sahəsində üzv və tərəfdaş ölkələrdə həyata keçirilən islahatlara dəstək olmaq, həmçinin işəgötürən təşkilatlarla təhsil müəssisələri arasında səmərəli əməkdaşlıq modelinin inkişaf etdirilməsi məqsədilə Avropa Təhsil Fondu tərəfindən "Turin Prosesi" adlı sənəd qəbul edilib. "Turin Prosesi"nin əsas məqsədi peşə təhsili və təlimi sahəsində son 2 ildə həyata keçirilən islahatlar nəticəsində əldə edilən nailiyyətlərin ayrı-ayrı ölkələr üzrə müqayisəsini aparmaqla uğur və çatışmazlıqları müəyyənləşdirmək, ümumi inkişaf strategiyasının formalaşmasına yardımçı olmaqdır.

Avropa Təhsil Fondu, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və "Savadlı Cəmiyyət" Müasir Təhsilə Dəstək İctimai Birliyi tərəfindən təşkil olunmuş seminarda Azərbaycanda həyata keçirilən peşə təhsili islahatının nəticələri müzakirə edilib.

Seminarda çıxış edən Təhsil Nazirliyi Texniki peşə təhsili şöbəsinin müdiri Namiq Məmmədov ölkəmizdə texniki peşə təhsili sahəsində həyata keçirilən islahatlar barədə danışıb, "Azərbaycan Respublikasında Texniki Peşə Təhsilinin İnkişafı üzrə" Dövlət Proqramı çərçivəsində həyata keçirilən işlər və əldə edilən nəticələr barədə məlumat verib.

Avropa Təhsil Fondunun eksperti Arien Dey "Turin Prosesi" çərçivəsində Azərbaycan və digər ölkələrdə peşə təhsili sahəsində həyata keçirilən islahatların müqayisəli təhlilinə toxunub. O, respublikamızda bu sahənin inkişaf etdirilməsinə təsir göstərəcək işlərin əhəmiyyəti barədə fikirlərini bildirib.

Avropa Təhsil Fondunun Peşə Təhsili və Təlimi Sistemi üzrə baş məsləhətçisi Manfred Vallenborn "Turin Prosesi"nin əhəmiyyəti və mahiyyəti haqqında söz açıb.

Seminarda, peşə təhsili və təlimi sahəsində islahatın gücləndirilməsi məqsədilə işəgötürənlər və təhsil müəssisələri arasında əlaqələrin genişləndirilməsi, sosial əməkdaşlığın inkişaf etdirilməsi üzrə strategiyanın hazırlanması, istehsal müəssisələri ilə təhsil sistemi arasında əlaqələri tənzimləmək üçün dövlət orqanlarının, qeyri-hökumət təşkilatlarının təmsilçilərindən ibarət əlaqələndirmə şurasının yaradılması məsələləri müzakirə edilib. Tədbirdə, həmçinin işçi qüvvəsinin əmək bazarının tələbatlarına uyğun olaraq ixtisasının artırılması, müvafiq ixtisaslaşdırılmış institutların qurulması, ixtisasların akkreditasiyası və sertifikatlaşdırılması üçün Milli İxtisas Çərçivəsinin hazırlanması və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb, bir sıra təklif və tövsiyələr səsləndirilib.